Hürriyyət
Təhsil
SİZİN ÜÇÜN QƏZET
№97 (3197) 21 Dekabr / 2021-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Nizaminin əsərlərində tərbiyə və təhsil məsələləri



Sərdar ZEYNAL
Filologiya üzrə elmlər doktoru

**Məqalədə Nizami Gəncəvinin - "Xosrov və Şirin", "Leyli və Məcnun" və "Yeddi gözəl" əsərlərinin hər birinə daxil edilən "Oğlum Məhəmmədə nəsihət" bölmələrində elmə, təhsilə, oxumağa olan sevgi və məhəbbət və bu yolla gedib uğur qazanan insanların əldə etdikləri nailiyyətlərdən bəhs olunur.**

**Hər bir xalqın gələcəyi bu gün yetişdirdikləri gənc nəslin tərbiyə və təhsilinin keyfiyyətindən asılıdır. Geniş elmi dünyagörüşə malik nəslin qurduğu dövlət, həyata keçirdiyi islahatlar, quruculuq işləri yalnız və yalnız xalqın rifahının yüksəldilməsinə xidmət edəcək və həmin xalqı dünyanın ən inkişaf etmiş xalqları sırasına çıxaracaqdır.**

**Gənc nəslin tərbiyə və təhsilinə diqqət, demək olar ki, Azərbaycan xalqının yetişdirdiyi, bütün görkəmli, yaradıcı şəxsiyyətlərin əsərlərində xüsusilə qabardılmış və sahə ilə bağlı çoxlu qiymətli fikirlər irəli sürülmüş, bu fikirlərin əksəriyyəti xalqın əxlaq kodeksinin tələblərinə çevrilmişdir.**

*(Əvvəli ötən sayımızda)*

## Rezume

Anadan olmasının 880 illiyini qeyd etdiyimiz Nizami Gəncəvinin öz doğma övladına üz tutaraq söylədiyi nəsihətlər təkcə onun övladı üçün yox, 880 ildən sonra bizim üçün də öz şöləsini azaltmayan səadət çırağıdır və mən inanıram ki, bu çıraq min illər boyu da elə belə şölələnəcək və heç bir zaman sönməyəcəkdir...



Nizami Gəncəvi 1797-ci ildə qələmə aldığı "Yeddi Gözəl"əsərində də oğlu Məhəmmədi nəzərdən qaçırmamış, bu əsərə də ona müraciətlə yazılmış, "Oğlum Məhəmmədə nəsihət" (səh.48-51) adlı bir parça daxil etmişdir.

"Xosrov və Şirin"əsəri yazılarkən oğlu Məhəmmədin yeddi, "Leyli və Məcnun" əsəri yazılarkən onun on dörd yaşı olduğunu nəzərə alsaq, deməli, Nizami" Yeddi Gözəl"i yazarkən oğlu Məhəmməd artıq 23 yaşlı bir növcavan imiş. Ona görə də, Nizami öz övladına ünvanladığı müraciətləri sanki onun yaş xüsusiyyətlərini nəzərə alaraq qələmə almışdır. Belə olmasaydı, onun yeddi yaşlı oğluna müraciəti yeddi, on dörd yaşlı oğluna müraciəti iyirmi beş, iyirmi üç yaşlı oğluna müraciəti isə yetmiş bir beytdən ibarət olmazdı.

Dahi sənətkar bu əsərdə oğlu Məhəmmədə xitabən yazdığı "Oğlum Məhəmmədə nəsihət" bölməsinin girişində yazır:

*Kim ki ibrət dərsi alıb dünyadan,*
*Sözün lövhəsini öyrənən zaman.*
*Elmiş sənəti elmə xəznədar,*
*Dünyanın müşkülü belə açılar.*

Bu müraciətdən sonra şair tənbelliyin, yıxılıb yatmağın insanı bədbəxt edəcəyindən söhbət açır. O, bölmədə oğluna daha yeddi yaşlı uşaq, on dörd yaşlı növcavan kimi müraciət etmir, bu müraciətdə o, Məhəmmədə dünyanı hərtərəfli başa düşən, dünya işlərindən baş çıxaran geniş dünyagörüşə malik bir insan kimi yanaşır və yazır:

*Adına yaxşılıq sikkəsini çal,*
*Böyük şöhrət qazan, göylərə ucal!*
*Nə qədər ki, varam mən bu dustaqda,*
*Yüksəl ki, yüksəlsin başın bu çağda*

Neçə hökmdarın diqqətini qazanmış, onları öz ayağına gətirmiş, bu gün də şöhrəti dünyaya sığmayan bir sənətkar bütün bunlarla kifayətlənmir, buna görə də oğlunu öz atasından daha uca, daha şöhrətli olmağa səsləyir və yazır:

*Hünər ardınca qoş, xalqa hünər saç,*
*Qapılar bağlama, ər ol, aç,*
*Hər kim öyrənməyi bilməyirsə ar,*
*Sudan dürr, daşdan da gövhər çıxarar.*
*Ancaq, öyrənməyi ar bilən insan,*
*Məhrumdur dünyada bilik almaqdan.*

Nizami yaşın ötməsinin insan ayağında qandala çevrildiyini, onu gənclik enerjisi ilə yazmaqdan uzaqlaşdırdığını öz həyatında hiss edib, oğlunu gəncliyini əldən verməməyə səsləyir və hər şeyin gənclik yaşlarında əldə etməyin asan olduğunu vurğulayaraq yazır:

*Varkən sağlığ əldə, cavanlıq əldə,*
*Sənindir hər murad, hər xoş əməl də!*
*...Dünyada keçməsin boş cavan çağın,*
*Yol get ki, güclüdür indi ayağın.*
*...Bax mənim söyüdüm quru budaqdır,*
*Laləm sapsarıdır, bənövşəm ağdır.*
*Qocaldım papağa əlim varmayır,*
*Kəmər bağlamağa belim varmayır.*
(səh.51)

Əlli altı yaşında da yeni sənət inciləri yaratmağa çalışan, lakin buna yaşının - səhhətinin imkan vermədiyini görən sənətkar, öz təcrübəsindən çıxış edərək oğlunu gəncliyindən səmərəli şəkildə istifadə etməyə səsləyir. O, qocalanda da yazıb-yaratmaq həvəsinin ölmədiyini, əksinə bu həvəsin daha da çoxaldığını dilə gətirir. Ancaq onu da qeyd edir ki, yazıb-yaratmaq təkcə həvəsdən asılı deyil, buna insanın fizioloji quruluşu da yol verməlidir. Elə bunu nəzərə alan şair yazır:

*Sanma qocalarda həvəs azalır,*
*Adam yaşadıqca arzu çoxalır,*

Şair öz təcrübəsindən əldə etdiyi nəticənin - yaş keçəndən sonra xarüqələr yaratmağın qeyri-mümkün olduğunu öz oğluna çatdırmaqla hər bir müvəffəqiyyətin gənclik enerjisinin məhsulu olduğunu ona başa salmağa çalışır və yazır:

*Bir gün bar götürər ağac əkənlər,*
*Xəzinə aparar əmək çəkənlər.*
*Tənək ağlamasa, vaxtında zar-zar*
*Yetirməz axırda sevinclərlə bar.*

Şair insanın öz arzusuna çatması, tarixin yol yoldaşına çevrilməsi üçün daim oxumağı, öyrənməyi və çalışmağı məsləhət görür və bu yolun qələbə yolu olduğunu diqqətə çatdırır. Oturub gün keçirməklə hər hansı bir uğurun əldə edilməsinə şair inanmır və bununla bağlı yazır:

*Sən çalış yaxşıca öyrən dünyanı,*
*Bəşəri, bitkini, daşı,heyvanı.*
*Qalacaq əbədi nə şey dünyada*
*Öyrən, günlərini vermədən bada.*
*...Hər kim öyrənməyi bilməyirsə ar,*
*Sudan durr, daşdan da gövhər çıxarar.*

Bu il, anadan olmasının 880 illiyini qeyd etdiyimiz Nizami Gəncəvinin öz doğma övladına üz tutaraq söylədiyi nəsihətlər təkcə onun övladı üçün yox, 880 ildən sonra bizim üçün də öz şöləsini azaltmayan səadət çırağıdır və mən inanıram ki, bu çıraq min illər boyu da elə belə şölələnəcək və heç bir zaman sönməyəcəkdir.